# QƏDIM TÜRK YAZILI ABIDƏLƏRI VƏ QƏDIM TÜRK INCƏSƏNƏTI

**Göyçək Bayramova,** ***AMEA- nın dissertantı***

Qədim türk yazılı abidələrinin neçənci əsrdə tərtib olunması tarixi hələ də elm aləmində müəyyənləşdirilməmişdir. İndiyə qədər əldə olunmuş qədim türk yazılı abidələri öyrənilir və öyrənilməkdədir.

Məşhur türkoloqlar V.Tomsen, V.Radlov, S.E.Malov və başqaları belə bir qənaətə gəlmişlər ki, ilk türk yazılı abidələri eramızın V yüzilliyində yaranmışdır.

Bu gün Altay və Şimali Monqolustanda qədim türk əlifbası ilə tərtib olunan yazı abidələrinin tapıntısı ildən ilə artır. Görün hələ nə qədər tətbiq olunmamış tarixi abidələr var. Bu hələ son deyil. Tədqiqatçılar tarixi mənbələrə və əldə edilən yeni yazılı mətnlərə əsaslanaraq iddia edirlər ki, türk qəbilələri eramızdan əvvəl özlərinə məxsus yazı ənənəsinə malik olmuşlar. Maraqlıdır ki, dilçi alimlər, türkoloqlar qədim türk abidələrinin fonetikası, leksikası, morfologiyası və sintaksisi haqqında mükəmməl fikirlər söyləyiblər.

Qədim türk yazılı abidələrinin coğrafiyası da çox genişdir. Çünki bu yazıların bir-birinə oxşarlığı, əlifbalarının da eyni olması, qədim türk qəbilələrinin min kilometrlərlə bir-birindən çox uzaq ərazilərdə yaşamalarının mümkünsüzlüyünü sübut edir. İndiyədək Qərbi Sibirdə, Şimali Monqolustanda, Çin Türküstanında, Orta Asiyada, Qafqazda aşkara çıxarılmış yazılı abidələr öz varlığını qoruyub saxlayan türk xalqlarının mədəni sərvətidir.

Bu yaxınlarda qazax türkoloqunun müsahibəsini eşitdim. O bütün incəsənət tədqiqatçılarını qədim türk abidələrindəki rəsmlərin tədqiqinə çağırırdı. O, etiraf edirdi ki, türkoloqlar qədim türk yazılı abidələri haqqında mülahizələrini, fikirlərini, tədqiqatlarını bu gün dünyaya sübut etdilər. Öz sözlərini dedilər.

Gəlin görək bü gün incəsənət aləmində qədim türk abidələrindəki rəsmlər haqqında düşünməyə dəyərmi?

Qədim türk abidələrində sənət nümunələrinə biz daş, qaya və ağac üzərində rast gəlirik. Bu da səbəbsiz deyil, çünki daş insanların məişətndə ən qədim və təbii nemətlərdən biri sayılır. O dövrün qadınlarının ilk bəzəyi də daşdan hazırlanmışdır. İnsanların estetik zövqünün inkişaf etdirilməsində daş böyük rol oynamışdır.

Əbəs deyil ki, bu gün alimlər qədim türk abidələrində ən qədim rəsm nümunələrinə rast gəlirlər. Alimlərin fikrincə, qədim türk xalqlarında ilahiləşdirilmiş təbii obyektlərdən ən qədimi daş olmuşdur. Elə buna görə

də onlar həmişə daşı müqəddəs saymışlar. Uzaq keçmişdə olan qədim türk abidələrindəki rəsmlərin ibtidai dövr sənətinə aid etmək olar.

Şimali Monqolustan və Çin Türküstanında tapılmış qaya təsvirlərində türk xalqlarının müxtəlif dövlərdə əl qabiliyyəti, dünyagörüşü və zövqü haqqında geniş məlumat verir. Oyma, cızma üsulu ilə həkk olunmuş rəsmlərin əksəriyyəti heyvan surətləri və döyüşçülərin təsvirləridir.

Qədim türk abidələrinin incəsənəti bu dövrün təsviri sənətində cəmiyyətin mifoloji təsəvvürlərinin və insanların həyat tərzini əks etdirən sujetli kompozisiyalar yaratmağa göstərilən maraqlı təşəbbüslər insanı bir tamaşaçı kimi valeh etməyə bilməz. Orta Asiyada Talas çayı sahillərində topladıqları kiçik heykəl hazırda Cambul şəhər muzeyində saxlanılır. Ümumiyyətlə, Talas abidələri daş və ağac çubuqları, qaya üzərində oyma-cızma üsulu ilə çəkilmişdir.

Bu gün Altamira, Fon-de-Qon, Qobustan qaya rəsmlərindən danışılır. Bəlkə də qədim türk abidələrindəki rəsmlərin tarixi daha qədimdir. Qərbi Sibirdə, Şimali Monqolustanda belə qaya rəsmləri daha çoxdur. Bu gün onları tətbiq etməyə böyük ehtiyac var.

Bu yolda iş aparacaq incəsənət alimlərimizə uğurlar diləyirəm.